AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİNİN KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 01.09.2016 |
| Qeydiyyat nömrəsi | 13 |
| Adı | "Kotirovka sorğusu prosedurunun təşkili və keçirilməsinə dair Təlimat"da dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 08.09.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201609010013 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 07.09.2016 |

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Satınalmalar üzrə dövlət Agentliyinin ləğv edilməsi haqqında" 2016-cı il 15 yanvar tarixli, 741 nömrəli Fərmanının 3.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli, 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11.6-cı yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyası

qərara alır:

1. Azərbaycan Respublikasının ləğv edilmiş Satınalmalar üzrə Dövlət Agentliyinin 2003-cü il 25 iyun tarixli, 12 nömrəli əmri ilə təsdiq edilmiş (2003-cü il 4 iyul tarixli 2984 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış) "Kotirovka sorğusu prosedurunun təşkili və keçirilməsinə dair Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Təlimatın 2.7-ci bəndinin üçüncü cümləsində "Satınalmalar üzrə Dövlət Agentliyinə" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin;

1.2. həmin Təlimata əlavə edilmiş “Kotirovka sorğusu prosedurunun nəticələri haqqında tender komissiyasının yekun protokolunun forması”nın “Qeyd” hissəsində “Satınalmalar üzrə Dövlət Agentliyinə” sözləri “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə” sözləri ilə əvəz edilsin.

2. Hüquq şöbəsinin müdiri Anar Əliyevə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədi ilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Kollegiyanın məsul katibi, Daxili nəzarət şöbəsinin Daxili araşdırmalar sektorunun müdiri Elgün Qədirova tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.

5. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının 2016-cı il 1 sentyabr tarixli iclasının protokolu.

Sədr,
iqtisadiyyat naziri — Şahin Mustafayev